# Ürəklərdə yaşayan insan...

## ƏFRAİL PAŞA OĞLU HÜSEYNOV



***«Əlillər Dünyası» qəzeti və «Beynəlxalq Əlillər Cəmiyyəti» İctimai Birliyinə ağır itgi üz vermişdir. Qəzetin redaktoru və məsləhətçisi Əfrail Paşa oğlu Hüseynov 80 yaşında vəfat etmişdir.***

Əfrail Hüseynov 1929-cu il iyun ayının 13-də Zəngilan rayonunun Qıraq-Müşgülan kəndində anadan olmuşdur. Orta məktəbi doğma kəndində bitirdikdən sonra, o vaxtki ADU-nun tarix fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra 1951-ci ildən Dövlət Təhlükəsizlik Komitəsi orqanlarında çalışmağa başlamışdır. 1954-cü ildə təhsilini davam etdirmək üçün Leninqrad (Sankt-Peterburq) şəhərindəki SSRİ Baş Kəşfiyyat İdarəsinin Ali Zabitlər Məktəbinə göndərilmişdir. 1985-ci ildə təqaüdə çıxaraq ömrünün sonunadək elmi-ictimai xadim, tarixçi-publisist kimi fəaliyyət göstərmişdir.

Əfrail Hüseynov 2004-cü ildən "Əlillər Dünyası" qəzetinin redaktoru, 2008-ci ildən isə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin İdarə Heyətinin sədr müavini kimi fəal vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. Vaxtılə DTK orqanlarında, Sank-Peterburq şəhərində, eləcə də doğma Azərbaycanımızda dövlətimizin suverenliyi, vətəndaşlarımızın hüquqlarının müdafiəsi məsələlərində ümummilli liderimiz Heydər Əliyevlə birgə əvəzolunmaz xidmətlər göstərmişdir. Əfrail Hüseynov bir peşəkar DTK zabiti olaraq sənətinin əsl vurğunu, vətəninin cəsur, haqqı nahaqqa qurban verməyən, türkçülük ideyalarının həm təbliğatçısı, həm də müdafiəçisi kimi böyük elmi təfəkkürə, möhkəm hafizəyə malik, yalnız tarixi faktlara əsaslanan şahidi olduğu böyük ömür yolunun tarixçəsinin əvəzolunmaz yazarlarından biri idi.

### Əfrail Paşa oğlu Hüseynovun xatirəsi daim qəlbimizdə yaşayacaqdır!

**"Beynəlxalq Əlillər Cəmiyyəti" İB-nın İdarə Heyətinin və "Əlillər Dünyası" qəzetinin Redaksiya Heyətinin üzvləri:**
**Tahir Xudiyev, Rafiq Əliyev, Nisəxanım Mirişli, Qədir Rüstəmov, Mir Müstəqil Ağayev, Akif Əliyev , Niyazi Məmmədov, Hüsaməddin Xudiyev, Mahir Əzizov, Fikrət Sirinov, Fikrət Babayev, Məlahət Abdullayeva, Meybulla Məcidov, Cahid Qasımov, Bəşir Mahmudov.**

***Deyirlər ki, bəzi insanlar öləndən sonra da yaşayırlar. Təbii ki, Nuh peyğəmbərə (ə.s), Süleyman Əleyhissəlama qalmayan dünya bizə də qalmayacaq. Hər birimiz köçümüzü bu işıqlı dünyadan gec-tez çəkib gedəcəyik, qara torpağa gömüləcəyik. Bizim öləndən sonra «yaşamağımız», adımızın rəhmətlə qoşa çəkilməsi, həmçinin ruhumuzun hörmət və ehtiramla yad edilməsi isə xalq, dövlət, Vətən, el-oba üçün gördüyümüz işlərdən, bu həyatda qoyduğumuz izlərdən asılı olacaq.***

*Dəli könül, bundan sonra sən nasıl*
*Zəngilanda qönçələnib açılmazsan?!*
**Əfrail Hüseynov**



#### İLK GÖRÜŞÜMÜZ

2003-cü ilin yay ayları idi. Qəzetimiz üçün aldığımız yeni ofisdə təmir işləri aparırdıq. Ofisimiz yol kənarında yerləşdiyindən hər gün onlarla insan o tərəf bu tərəfə gedir, bəziləri maraqla ofisə tərəf boylanır, bəziləri isə heç nə olmayıbmış kimi yanımızdan ötüb keçirdilər. Bir gün müasir geyimli, orta boylu, nurani bir ağsaqqal ofisin yanından keçərkən "işiniz avand olsun"- dedi və yanımızdan asta addımlarla ötüb keçdi. Məsələ burasındadır ki, bu neçə vaxt ərzində bu küçədən keçənlərdən yeganə şəxs idi ki, bizə xeyir-dua verirdi. Səhəri gün həmin ağsaqqal kişi yenə xeyir- dua verib keçəndə mən özümü saxlaya bilməyib - "Ağsaqqal, bir dəqiqə ayaq saxlaya bilərsinizmi?"- deyərək həmin kişini hələ tam təmir olunmamış ofisimizə dəvət etdim. Gözəl insan, nurani ağsaqqal Əfrail Paşa oğlu Hüseynovla ilk tanışlığım belə başladı.

#### HƏYAT TARİXÇƏSİ

Əfrail Paşa oğlu Hüseynov 1929-cu ildə tarixən qədim Türk-Oğuz xaqanlarının, cəngavərlərin, xan-paşaların qılıncları ilə düşmənə amansız zərbələr endirmiş bir mahalda - Azərbaycanın Zəngilan rayonunun Qıraq-Müşgülan kəndində dünyaya göz açıb. Ailədə 4 uşaqdan ən böyüyü olub. Atası Paşa kişi dövrünün çox mərd və qorxmaz şəxslərindən biri idi. Əfrail dayı xatirələrindən danışırdı ki: "Hələ İranla sərhədlərin açıq olan vaxtı əmisi Rza İrana gedir. Qonaq getdiyi evin sahibi varlı-hallı bəylərdən biri imiş. Bəyin Rza kişinin o dövr üçün çox bahalı və xaricdə istehsal olunan tapançasından xoşu gəlir. Əlinə alıb baxanda Rza kişi mərdliklə "xoşun gəlirsə, bağışladım sənə"-deyir. Hədiyyəni alan bəy silahı öz köməkçisinə verib, heç bir səbəb olmadan Rzanı qətlə yetirməyə işarə edir. Qardaşının qətlə yetirildiyini eşidən Paşa onun intiqamını almaq üçün İrana yollanır. Orada həmin bəyi də, onun köməkçisini də tapıb başlarını kəsir. Beləliklə də qardaşının intiqamını alır". Hal-hazırda Əfrail kişinin nəvələrindən biri əmisi Rzanın adını daşıyır. Erkən yaşlarından anasını itirən Əfrail dayı çox keçmir ki, bacısını da dəfn edir. Atası çörəkpulu dalınca müxtəlif kəndlərə getdiyindən günlərlə evə gələ bilmirdi. Əfrail kişi də kiçik qardaşları və bacısı üçün həm ata, həm də ana olmuş, onların təhsil almasında və qayğısız böyümələrində əvəzsiz rol oynamışdır.

1946-cı ildə orta məktəbi bitirərək, o vaxtki ADU-nun tarix fakültəsinin məzunu olmuşdur. Əfrayıl dayı danışırdı ki, müharibə vaxtı o qədər aclıq və səfalət gürmüdü ki, 1947-ci ildə çörək almaq üçün talon sistemi ləğv olunan kimi qaçır dükana 3 buxanka çörək alır. Doyunca yeyəndən sonra əllərini göyə qaldıraraq "ay Allah, indi canımı ala bilərsən", deyir.

Keçmiş SSRİ məkanında 1951-ci ildən Milli Təhlükəsizlik Komitəsi orqanlarına işə qəbul olunaraq, 1954-cü ildə Leninqrad (Sankt-Peterburq) şəhərindəki SSRİ Baş Kəşfiyyat İdarəsinin Ali Zabitlər Məktəbinə təhsil almağa göndərilir. Atasının məsləhəti ilə əmisi qızı Məşuqə xanımla ailə həyatı qurur. Bu izdivacdan 4 oğul, 2 qız övladı dünyaya gəlir.

Vaxtılə DTK orqanlarında, Sank-Peterburq şəhərində, eləcə də doğma Azərbaycanımızda dövlətimizin suverenliyi, vətəndaşlarımızın haqq-hüquqlarının müdafiəsi məsələlərində ümummilli liderimiz Heydər Əliyevlə birgə əvəzolunmaz xidmətlər göstərmişdir. Əfrail Hüseynov o vaxtkı DTK əməkdaşlarından yeganə şəxs idi ki, İran şahı Rza Pəhləvi öz möhürü ilə ona istədiyi vaxt İran ərazisinə maneəsiz gedib-gəlməsi üçün icazə vəsiqəsi vermişdir.

Əfrail Hüseynov bir peşəkar DTK zabiti olaraq sənətinin əsl vurğunu, təbiətən cəsur, haqqı nahaqqa qurban verməyən, türkçülük ideyalarının həm müdafiəçisi, həm də təbliğatçısı kimi böyük elmi təfəkkürə, möhkəm hafizəyə, yalnız və yalnız faktlara, tarixi hadisələrə əsaslanan, şahidi olduğu böyük ömür yolunun tarixçəsinin əvəzolunmaz yazarlarından biri idi.

#### ONUN YAZILARI

Əfrail Hüseynov 1985-ci ildən təqaüdə çıxaraq ömrünün sonunadək elmi-ictimai xadim, tarixçi-publisist kimi fəaliyyət gəstərmişdir. Ərəb, fars və rus dillərini mükəmməl bilən müdrik el ağsaqqalı, yorulmaq bilmədən təqaüddə olarkən "Türkün zühuru", "Türkün şüuru", "Fəzilət şavaşı", "Çahargah dostarı", "Zəngəzur güzərgahlarında", "KQB-dən cavab-1967", "Xankəndi- Ermənistan fəsadları" və başqa həqiqi elmi-tarixi milli şüura söykənən fəlsəfi əsərlərin müəllifi kimi yaddaşlarda əbədi iz buraxmışdır. Məhz onun qələminin məhsulu olan "Qaradəlik-Qarabağ", "Zəngilanın, Zəngəzurun yazılmamış keçmişindən" adlı əsərlərdə əsrlər boyu Azərbaycanın başına gətirilmiş çoxsaylı müsibətlərin, faciələrin öz əksini tapması həqiqətən ciddi məqamlardan xəbər verir. Bütün bu yazılarda əsrlər boyu sözün əsl mənasında Türk xalqına düşmən kəsilmiş, Azərbaycan xalqına nifrət bəsləyən mənfur düşmənlərimiz olan ermənilərin əsl simaları göstərilir. Qeyd etmək yerinə düşər ki, Dağlıq Qarabağda işlədiyi dövrdə Əfrail dayının erməni faşist-dığalarına tutduğu "toy" onun qəhrəmanlığının nümunəsidir. Sovet dövründə ən yüksək təhlükəsizlik orqanı olan DTK-da vəzifə almış ermənilərlə ciddi mübarizə aparan DTK-ya (Milli Təhlükəsizlik Orqanımıza) azərbaycanlıların daha çox cəlb olunmasında mərhum prezidentimiz Heydər Əliyevlə yanaşı Əfrail Hüseynovun da bir vətənpərvər eloğlu kimi xidmətləri çox olmuşdur. Əsasən dağlıq əraziyə malik Ermənistanla həmsərhəd, amma sonradan adları erməniləşdirilmiş şəhər, kənd, el-oba məskənlərimizin tarixini yaxından bilən tarixçi Əfrail Hüseynov həm də Azərbaycan təbiətinin vurğunu idi. Qəzetimizin 11.11.2004-cü il tarixli 05 (05) sayında işıq üzü görmüş "Əyləngəz dağında saziş" adlı yazısı Ə.Hüseynovun vaxtılə Naxçıvanın Ordubad rayonunda keçmiş xüsusi xidmət orqanının rəisi işləmiş Qarabağlı, əslən Ağdamdan olan bir soydaşımızın torpağımıza, Vətənimizə qənim kəsilmiş düşmənlərimizə qarşı mübarizə aparması, ümumilikdə doğma vətənimizə sevgi və məhəbbətin təcəssümüdür. Əfrail Hüseynov bu cəsur və qəhrəman çekisti müasir gənclərə nümunə göstərir, onun timsalında xüsusi xidmət orqanlarında Vətənini və xalqını necə sevən insanların çalışdığını çatdırmaq istəyirdi.

Əfrail Hüseynov 2004-cü ildən "Əlillər Dünyası" qəzetinin redaktoru, məsləhətçisi və heyət üzvü, 2008-ci ildən isə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin İdarə Heyətinin sədr müavini idi. Əfrail dayının redaksiya əməkdaşlarına münasibəti xüsusilə böyük ehtiram və hörmət, yüksək mədəniyyət etikası ilə müşayiət olunurdu. Bu münasibətlər toplusuna həmişə özündən kiçiyə və böyüyə qayğını, prinsipial vətəndaşlıq mövqeyini, lazım gələn məqamda isə hətta isti ata nəvazişini də əlavə etmək olar. "Əlillər Dünyası" qəzetinin heyətinə bu cür münasibət, şübhəsiz sonda nəinki respublikamızda, hətta onun hüdudlarından çox-çox uzaqlarda belə bu mətbu orqanın nüfuzunun artmasına gətirib-çıxatrmışdır.

#### SON GÖRÜŞÜMÜZ

Vəfatından bir gün öncə Əfrail dayı redaksiyamıza gəldi, əməkdaşlarımızla çox mehribancasına görüşdü, xeyir-dualarını verərkən təbəssüm və nəvazişini əsirgəmədi. Ölümün üzünə dik baxdı, yeganə arzusunun Qarabağın xilası, parçalanmış Azərbaycanımızı bütöv görmək olmasından sönməz həyat eşqı ilə bir daha söz açdı, son tövsiyyələrini verdi. Qeyri-adi təfəkkürə, titanik elmi-yaradıcı təxəyyülə malik, çox qaynar həyat yolu keçmiş Əfrail Paşa oğlu Hüseynovun itgisi bütün ailə üzvlərinə, yaxın adamlarına sözlə ifadə olunmaz mənəvi zərbə vurdu. Əfrail dayının yoxluğu həqiqətən də onu yaxından tanıyanlar üçün çox ağır itgi oldu. Ən böyük təsəllimiz onunla bağlı işıqlı və parlaq xatirələrdir...

Əfrail Hüseynov həm də çox ləyaqətli ailə başçısı idi. Uşaqlarının hamısı ali təhsil almış, respublikamızın elm-təhsil müəssisələrində, hüquq-mühafizə orqanlarında tanınmış eloğlumuzun şərəfli ömür yolunu ləyaqətlə davam etdirirlər.

Qəbrin nurla dolsun, Əfrail dayı! Fəxr olunmalı Azərbaycan oğlusunuz! Bundan sonra da Siz bizim üçün örnək olacaqsınız!

Allah sənə rəhmət eləsin, Əfrail dayı!

***Tahir Xudiyev***

# Həkim məsləhəti

***Oxucularımıza yaxşı məlumdur ki, Ə.Əliyev adına ADHTİ Yoluxucu xəstəliklər kafedrasının müdiri, professor, tibb elmləri doktoru, Ekologiya və həyat fəaliyyəti təhlükəsizliyi elmləri Beynəlxalq Akademiyasının akademiki Nisəxanım Mirişli, həm də qəzetimizin Redaksiya Heyətinin üzvüdür. N. Mirişlının hazırda dünyada çox geniş yayılmış və əhalini narahat edən donuz qripi xəstəliyi barədə məqaləsini sizə təqdim edirik.***



Donuz qripi

Donuz qripi ümumi qrip anlayışına aid olan xəstəlikdir. Ümumiyyətlə, qrip dünya miqyasında çox yayılmış bir xəstəlikdir və etiraf etmək lazımdır ki, onun yayılması nəticəsində insanlar çox böyük təlafata məruz qalıblar.

Keçən əsrdə üç qrip pandemiyası baş vermişdi: 1918-ci ildə "İspan qripi", 1957-ci ildə "Asiya qripi" və 1968-ci ildə "Honkonq" qripi".

1918-ci ilin pandemiyası bütün dünyada 40-50 milyon insan təlafatına səbəb oldu. Bu nadir pandemiya insan tarixində ən ölümcül pandemiya hesab olunur. Sonrakı pandemiyalar az təlafatla nəticələnib-1957-ci ildə 2 milyon, 1968-ci ildə isə 1 milyon.

Donuz qripi xəstəliyi ilk dəfə 2009-cu ildə Meksikada baş vermişdir və 16 insanın həyatına son qoymuşdur.

Belə hesab olunur ki, indiyədək bu qripə dünyada 1 milyon 200 min insan tutulub. Ehtimal var ki, bu qrip hələ də yayılır və bəşəriyyət pandemiya təhlükəsi qarşısındadır. Güman olunur ki, 18-24 ay müddətində 1,5 milyard insan bu xəstəliyə tutula bilər və onlardan 1 milyondan çoxu tələf ola bilər.

Donuz qripi nədir?

Bu qrip adi "A" qripi virusunun (törədicisinin ) dəyişilmiş variantı ilə törənir. Bu yeni əmələ gəlmiş virus (mutant) H1N1 variant adlanır. Quş qripi də "A" qripinin H1N5 variantı ilə törənir. Lakin quş qripi insana məhz xəstə və ya ölü quşlardan yoluxur. Donuz qripi isə insana xəstə heyvanlardan (donuzlardan) yoluxur, insan bədənində dəyişir bə başqa bir insana yoluxa bilir. Ona görə də donuz qripinin yayılması (epidemiyası) tez bir zamanda baş verir və çox təhükəlidir.

Donuz qripi xəstəliyinin əlamətləri heç də başqa qriplərdən fərqlənmir. Xəstəliyin ilk simptomları baş ağrısı, əzələlərdə ağrı, hərarətin yüksəlməsi olur. Bir neçə saatdan sonra bu təzahürlərə öskürək və yuxarı tənəffüs yollarının zədələnməsi kimi ağırlaşmalar da əlavə olur. Adi "A" qripindən fərqli olaraq, donuz qripində qeyd olunan əlamətlərdən əlavə ürək bulanması, qusma və ishal halları da baş verə bilər.

Donuz qripi xəstəliyi zamanı ölüm halları əsasən qripin ağırlaşması və fəsadları ilə bağlıdır. Bu səbəbdən də qrip başlayan kimi həkimə müraciət olunmalı, həkimin məsləhəti və nəzarəti ilə müalicə aparılmalıdır. Yalnız bu yolla ağırlaşmaların və fəsadların qarşısını almaq olar.

Bundan əlavə hər bir kəs şəxsi gigiyena qaydalarına da riayət etməlidir. Tez-tez əlləri sabunla yumalı, öskürən-asqıran adamlardan tezliklə aralanmaq lazımdır. Bu mümkün olmadıqda, xüsusi qoruyucu maska (raspirator) taxılmalıdır.

Əlbəttə hər bir oxucunu maraqlandırır ki, respublikamızda donuz qripinə yoluxmuş xəstələr var ya yox?

Birmənalı cavab budur-Azərbaycanda bu xəstəliyə yoluxanlar hələ ki, yoxdur. Səhiyyə Nazirliyi və müvafiq təşkilatlar bu təhlükəni uzaqlaşdırmaq üçün bütün səylərini səfərbər ediblər.

Bu xəstəliyin profilaktikası üçün xüsusi vaksina lazımdır. Rusiyada bu vaksinanın tapılması və xəstəliyin müalicəsi istiqamətində sınaqlar aparılır. Sınaqlar müsbət nəticə verərsə, vaksina hazırlanacaq və kommersiya yolu ilə yayılacaqdır.

Ümidvaram ki, bizim respublikamızda donuz qripi xəstəliyi yayılmayacaq.

# RAFIQ ƏLİYEVİN YENİ NƏZƏRİYYƏSİ ABŞ-da MÜZAKİRƏ OLUNUR

## Rafiq Əliyev: «Bu qürur hissi Vətənimdən, millətimdən, Azərbaycandan qaynaqlanırdı»

***Oxucularımıza yaxşı məlumdur ki, dünya şöhrətli azərbaycan alimi, Dövlət Neft Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri kafedrasının müdiri, texnika elmləri doktoru, Almaniyanın Zigen Universitetinin, Quzey Kipriz Yaxın Doğu Universitetinin, ABŞ-ın Corciya Dövlət Universitetinin, Təbriz Universitetinin professoru Rafiq Əliyev həm də qəzetimizin Redaksiya Heyətinin üzvüdür.***



R. Əliyevin tədqiqat maraqları müasir idarəetmə nəzəriyyəsi, Soft Kompütinq, multiagent paylanmış süni intellekt və sözlə hesablama nəzəriyyəsini əhatə edir. Onun cari tədqiqatları ümümləşdirilmiş dayanıqlıq nəzəriyyəsi, rekurent qeyri-səlis neyron şəbəkələri, II tip qeyri- səlis sistemlər, Təkamül hesablama, qeyri-müəyyənlik şəraitində qərar qəbuletmənin təhlili və qeyri-səlis iqtisadiyyat ilə əlaqədardır.

Prof. R. Əliyev müntəzəm olaraq keçirilən "Qeyri-səlis sistemlərin və soft kompötinqin tətbiqi" (International Conference on Applications of Fuzzy Systems and Soft Computing), "Sistemli təhlil, qərar qəbuletmə və idarəetmədə soft kompütinq, söz və persepsiya ilə hesablamalar" (International Conference on Soft Computing and Computing with Words in System Analysis, Decision and Control) və "İstehsalın avtomatlaşdırılması üçün intellektual sistemlər" (World Conference on Intelligent Systems for Industrial Automation) beynalxalq konfranslarının sədridir. O, Yaponiyada nəşr olunan "Journal of Advanced Computational Intelligence and Intelligent Informatics" beynəlxalq jurnalın redaktoru, Hollandiyada nəşr olunan "Journal of Web-based Communities", İranın "Iranian Journal of Fuzzy Systems", İtaliyada çap olunan "International Journal of Advances in Fuzzy Mathematics", ABŞ-da çap olunan beynalxalq "Intelligent Automation and Soft Computing" jurnalların redaksiya heyətinin üzvüdür. R. Əliyev elm sahəsində SSRİ Dövlət Mükafatı (1983) və ABŞ-ın Fullbright Mükafatı laureatıdır (1997).

Professor R.Əliyev bu günlərdə ABŞ-dan qayıtmışdır. O, Berklidəki Koliforniya Universitetində, Sinsinati Universitetində və başqa universitetlərdə seminarlar keçirmiş və mühazirələr oxumuşdur. Müxbirimiz R.Əliyevlə görüşmüşdür. R. Əliyevin dediklərindən:

- ABŞ-a bu dəfəki səfərim əsasən ABŞ-ın iki universitetinin dəvəti və xahişi ilə səbəblənmişdi. Əvvəlcə Berkli Universitetinin BISC (Berkeley Initiative in Soft Computing) qurumunda seminar keçirmək üçün professor L.Zadə tərəfindən dəvət olunmuşdum. Bu dəvətin başqa bir məqsədi Berkli Universiteti ilə olan elmi kontraktımız üzrə apardığımız tədqiqatların nəticələrini təhlil etmək, gələcək elmi araşdırmalarımızı müzakirə etmək idi.

Başqa bir dəvət isə Sinsinati Universiteti tərəfindən idi. İyun ayının 14-17-də bu universitetdə NAFIPS-2009 (North American Fuzzy Information Processing Society) keçirilirdi. Konfransın sədri ABŞ-da və ümumiyyətlə dünya elmində yaxşı tanınan professor A.Ralesku plenar məruzə ilə çıxış etmək üçün mənə dəvət göndərmişdi. O, yazırdı:

"Hörmətli professor R.Əliyev, Sizi "Qeyri səlis iqtisadiyyatda qərarların təhlili və dayanıqlılığın tədqiqi" mövzusunda plenar məruzə etməyə dəvət edirik. Sizin cıxışınız konfransın müvəffəqiyyət və keyfiyyəti üçün böyük əhəmiyyət kəsb edəcək.

Hörmətlə, NAFIPS 2009-un baş rəhbəri professor A.Ralesku".

**Ardı səh. 4-də**